**MİLLİ CƏBHƏ PARTİYASI**

**31.12.2024 ci il tarixinə maliyyə hesabatları**

# ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTİ VƏ İZAHLI QEYDLƏR

## 1.Giriş

Hazırki maliyyə hesabatları 31 dekabr 2024-cü ildə tamamlanan il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standarlarına(MHBS) uyğun olaraq MİLLİ CƏBHƏ PARTİYASI ( irəlidə Partiya adlanacaq) üçün tərtib edilmişdir.

### 1.1.Partiya haqqında ümumi məlumat

**MİLLİ CƏBHƏ PARTİYASI** Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 31 avqust 2020 – ci il tarixində 1120-P1-0060 saylı Şəhadətnamə ilə qeydiyyata alınıb.
Mülkiyyət növü – xüsusi
Qanunu təmsilçisi – MCP Sədri Nurullayev Razi Qulaməli oğlu
Partiyaya Bakı şəhəri Vergilər Departamenti tərəfindən 1006733281 VÖEN şəhadətnamə verilib.MCP-nin əsas məqsədi sosial demokratik dəyərlərə söykənən müasir bir cəmiyyət, sivil qurumlar tərəfindən yönəldilən, insan azadlığının və mülkiyyət toxunulmazlığının ən ali prinsiplər kimi qorunduğu, milli iradənin hegemon olduğu bir Azərbaycan dövləti qurmaqdır.
2022 – ci ilin sonuna partiya üzvlərinin sayı 5941 nəfər təşkil etmişdir.
Hesabat dövrü ərzində işçilərin orta sayı 14 nəfər təşkil etmişdir.

### 1.2.Partiyanın hüquqi ünvanı

Hüquqi ünvan - Bakı şəhəri, Binəqədi rayonu, 8-ci mkr.,S.S.Axundov küçəsi, ev 1b,m71

Faktiki ünvan - Bakı şəhəri, Binəqədi rayonu, 8-ci mkr.,S.S.Axundov küçəsi, ev 1b,m71

### 1.3.Əməliyyat valyutası

Hazırki maliyyə hesabatlarındakı məbləğlər Azərbaycan Manatı (AZN) ilə ifadə olunmuşdur.

## 2.Uçot siyasətinin təqdimatı

Uçot siaysətinin bu maliyyə hesabatlarının tərtib edilməsində istifadə edilən əsas müddəaları aşağıdakı bəndlərdə göstərilmişdir.Əgər başqa açıqlamalarda istinad qeydləri edilməmişdirsə, göstərilən uçot siyasəti müddəaları təqdim edilən bütün hesabat dövrlərində ardıcıl tətbiq edilmişdir.

### 2.1.Maliyyə hesabatlarının tərtib olunmasının ümumi əsasları

**MİLLİ CƏBHƏ PARTİYASI** muhasibat uçotunu Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun qaydada aparır.Bu maliyyə hesabatları Azərbaycan Respublikasının mühasibat uçotu haqqında qanunvericiliyi əsasında hazırlanmış və MHBS-na uyğunlaşdırılmışdır.Bu düzəlişlərə əsas əməliyyatların iqtisadi mahiyyətini əks etdirən yenidən təsnifləşdirmələr, o cümlədən bəzi aktiv və öhdəliklərin yenidən təsnifləşdirilməsi daxildir.Bu maliyyə hesabatlarında, aktivlər və öhdəliklər faktiki xərclər üzrə qiymətləndirilmişdir.Bu

maliyyə hesabatları tərtib olunarkən 31 dekabr 2024-ci il tarixə olan göstəricilər dəqiqləşdirilmişdir.

Maliyyə hesabatlarının MHBS-na uyğun tərtib edilməsi nəzərdə tutur ki, rəhbərlik əsas qiymət göstəricilərini müəyyənləşdirir.

## 2.2.Valyutanın yenidən hesablanması

### (a) Funksional valyuta və hesabat valyutası

Funksional valyuta maliyyə hesabatlarında maddələrin ölçülməsi üçün istifadə olunur.Bu müəssisənin yerli valyutası olan Azərbaycan Respublikası manatıdır (AZN).

### (b) Əməliyyatlar və qalıqlar

Xarici valyuta ilə aparılan əməliyyatlar əməliyyatların aparılma tarixinə valyuta məzənnəsinə uyğun olaraq funksional valyutada əks etdirilir.Məzənnə fərqləri funksional valyutalardan fərqli valyutalarda aparılan əməliyyatlar və sövdələşmələr üzrə yaranır və hər bir valyutanın müəyyən sayda vahidlərinin müxtəlif məzənnə kursunda digər valyutaya çevrilməsi nəticəsində yaranan fərq kimi müəyyən edilir.Xarici valyutada aparılan əməliyyatlar üzrə yaranmış mənfəət və zərərlər, həmçinin xarici valyutada ifadə edilən monetar aktivlərin və öhdəliklərin hesabat dövrünün sonuna məzənnə kursu üzrə yenidən hesablanmasından yaranan mənfəət və zərərlər, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.Bu cür əməliyyatlarda yaranan məzənnə fərqləri müvəqqəti olaraq pul vəsaitlərinin və netto investisiyaların hedcinqləşdirilməsi (aktivlər və öhdəliklərin dəyərinin dəyişməsindən yaranan itkilərdən sığortalanmaq üçün həyata keçirilən əməliyyatlar) kapital hesabına aid edilmişdirsə, məzənnə fərqləri mənfəət və zərərlər haqqında hesabatda əks etdirilmir.

Monetar naddələr mövcud valyuta vahidləri və valyuta vahidlərinin sabit və ya müəyyən olunan sayında əldə edilən və ya ödənilən aktivlər və öhdəliklərdir.Monetar maddələrin əsas xüsusiyyəti sabit və ya müəyyən olunan sayda valyuta vahidlərinin əldə edilməsi hüququdur.Monetar maddələr nağd, əldə edilən vəsaitləri, sudaları, ödənilməli olan məbləğləri, uzunmüddətli borcları, təminatları, işçi müavinətləri öhdəliklərini və təxirə salınmış vergi aktivləri və öhdəliklərini daxil edir.

Qeyri – monetar maddələrə səhmlər, ehtiyatlar, əvvəlcədən ödənilmiş gələcək dövrün xərclər, əmlak, torpaq, tikili və avadanlıqlar və qeyri – maddi aktivlər daxil edilir.

## 2.3.Torpaq, tikili və avadanlıqlar (Əsas vəsaitlər)

Torpaq, tikili və avadanlıqlar elə aktivlərdir ki, inzibati məqsədlər və təchizatında istismar edilir və ya gələcəkdə icarəyə verilmək məqsədlər üçün istifadə edilir.Bir dövrdən artıq dövr ərzində istifadə edilməsi gözlənilir.Bu uzunmüddətli aktivlər əldə edilərkən ödənilən dəyər əsasında tanınır.Hər il aktivin yenidənqiymətləndirilmiş balans dəyəri əsasında hesablanmış amortizasiya ayırmaları (amortizasiya ayırmaları mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir) və aktivin ilkin balans dəyəri əsasında hesablanmış amortizasiya ayırmaları arasındakı fərq, ədalətli dəyər üzrə ehtiyat ( rezerv) hesabından "Bölüşdürülməmiş mənfəət" hesabına keçirilir.

## 2.4.Amortizasiya

**Torpaq üzrə amortizasiya ayırmaları hesablanmır.**

Digər əsas vəsaitlər üzrə amortizasiya azalan qalıq dəyəri metoduna, yəni əsas vəsaitlərin faydalı istismar müddəti ərzində aşağıdakı illik amortizasiya dırıclırini tıtbiq etməklə, aktivlərin qalıq dəyərinə və ya yenidənqiymətləndirilimiş dəyərinə vurmaqla həyata keçirilir.Faydalı istismar müddəti və ya illik amortizasiya dərəcələri aşağıdakı qaydada müəyyən edilir.

-Binalar və qurğular – 5 il və ya illik 7%-dək (yoxdur)

-Maşın avadanlıq – 5 il və ya illik 20%-dək (yoxdur)

-Nəqliyyat vasitələri – 5 il və ya illik 25%-dək (yoxdur)

-Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası 25%-dək

-Sair əsas vəsaitlər – 5 il və ya illik 20%-dək

Aktivlərin ləğv edilmə dəyərinə və onların faydalı istismar müddətinə vaxtaşırı yenidən baxılır və zərurət olduqda, hər bir hesabat dövrünə təshih edilir.

Əsas vəsaitlərin xaricolmasından mənfəət və zərərlər bu əsas vəsaitlərin satışı ilə onların balans dəyərinin müqayisə edilməsi yolu ilə müəyyən edilir.Xaricolmalardan mənfəət və zərərlər mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

## 2.5.Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nəğd pul məbləğinə çevrilə bilən və dəyəri cuzi dəyişikliklərə məruz qalan maddələrdir.Pul vəsaitləri və onların ekvivalentləri maddəsində kassada olan nəğd pul vəsaitləri, yolda olan pul köçürmələri, bank hesablaşma hesabları, digər tələbli bank hesabları, pul vəsaitlərinin ekvivalentləri, bank overdraftları və ödənilmə müddəti üç aydan artıq olmayan digər yüksəklikvidli investisiyalar əks etdirilir.Mühasibat balansında bank overdraftları qısamüddətli öhdəliklərin tərkibində qısamüddətli faiz xərcləri yaradan öhdəliklər maddəsi üzrə əks etdirilir.

## 2.6.Kreditlər və borclar

Kreditlər və borclar ilkin olaraq sövdləşmənin aparılmasına çəkilən xərclər çıxılmaqla, ədalətli dəyər üzrə tanınır.Kreditlər və borclar, Partiya tərəfindən bu öhdəliklərin ödənilmə müddətinin mühasibat balansının tərtib edilmə müddətindən ən azı bir ildən artıq olan müddətə ödəniləcəyi barədə şərtsiz hüquqi olması halları istisna olmaqla, qısamüddətli öhdəliklər kimi təsnifləşdirilir.İlin sonuna cəmiyyətin 0.00 manat debitor borcu və 0.00 manat kreditor borcu var.

## 2.7.İcarə

Mülkiyyət hüququndan irəli gələn risklərin və səmərələrin əhəmiyyətli hissəsinin icarəyə verəndə qalması hallarındakı icarə, əməliyyat icarəsi kimi təsnifləşdirilir.Əməliyyat icarəsi müqaviləsi üzrə ödənişlər bütün icarə müddəti üzrə bərabər hissələrə bölünməklə, mənfəət və zərər haqında hesabatlarda əks etdirilir.

## 3.Gəlirin tanınması

Gəlir aktivlərinin artamsı və öhdəliklərin azalması ilə bağlı iqtisadi səmərənin baş verdiyi və bu artımin etibarlı səviyyədə qiymətləndirilməsi mümkün olduğu halda və gəlir tanıma **meyarına**

**uyğun olaraq tanındıqdan və qiymətləndirildikdən sonra uçota alınmaqla, təşkilatın maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatda əks olunur.**

**4.Xərclərin tanınması**

Partiyada xərclər, lahiyələr (tərtib olunan büdcələr) əsasında alınan və lahiyə (büdcə) çərçivəsində lahiyələrin büdcələri əsasında ödənilən zaman tanınacaqdır.Yəni lahiyələrdən vəsaitlər daxil ola bilər , amma lahiyə icra olunmasa həmin vəsait xərc kimi tanına bilməz

**5.Vergi qanunvericiliyi və əmək qanunvericiliyi**

**MİLLİ CƏBHƏ PARTİYASI** Azərbaycan Respublikasının vergi, əmək, sosial sığorta, valyuta və gömrük qanunvericiliyi ilə nəzərdə tutulan tələblərə təlimata uyğun əməl etmişdir.Büdcə və sosial sığorta ayırmaları düzgün hesablanmışdır.

**6.Torpaq, tikili avadanlıqlar**

| Məzmun | Avadanlıq | | Cəmi |
|---|---|---|---|
| **31 dekabr 2019-cu il tarixinə ilkin dəyər** | **0.00** | | **0.00** |
| Yığılmış amortizasiya | **0.00** | | **0.00** |
| 31 dekabr 2019-cu il tarixinə balans dəyəri | **0.00** | | **0.00** |
| 01 yanvar 2021-ci il tarixinə balans dəyəri | 0.00 | | 0.00 |
| Daxilolmalar | 2400.00 | | 2400.00 |
| Xaricolmalar | - | | - |
| Amortizasiya ayırmaları | 600.00 | | 600.00 |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | - | | - |
| **31 dekabr 2021-ci il tarixinə ilkin dəyər** | **1800.00** | | **1800.00** |
| Yığılmış amortizasiya | 0.00 | | 0.00 |
| 31 dekabr 2021-ci il tarixinə balans dəyəri | **1800.00** | | **1800.00** |
| 01 aynavar 2022-ci il tarixinə balans dəyəri | 0.00 | | 0.00 |
| Daxilolmalar | - | | - |
| Xaricolmalar | - | | - |
| Amortizasiya ayırmaları | 450.00 | | 450.00 |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | - | | - |
| **31 dekabr 2022-ci il tarixinə ilkin dəyər** | 1800.00 | | 1800.00 |
| Yığılmış amortizasiya | 450.00 | | 450.00 |
| **31 dekabr 2022-ci il tarixinə balans dəyəri** | 1350.00 | | 1350.00 |

| | | | |
|---|---|---|---|
| Yığılmış amortizasiya | 450.00 | | 450.00 |
| **31 dekabr 2022 ci il tarixinə balans dəyəri** | 1350.00 | | 1350.00 |
| 01 yanvar 2023 cü il tarixinə balans dəyəri | 0.00 | | 0.00 |
| Daxilolmalar | - | | - |
| Xaricolmalar | - | | - |
| Amortizasiya ayırmaları | 337.50 | | 337.50 |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | - | | - |
| **31 dekabr 2023 cü il tarixinə ilkin dəyər** | 1350.00 | | 1350.00 |
| Yığılmış amortizasiya | 337.50 | | 337.50 |
| **31 dekabr 2023 cü il tarixinə balans dəyəri** | 1012.50 | | 1012.50 |
| **31 dekabr 2024 cü il tarixinə ilkin dəyəri** | 8708.86 | | 1352.19 |
| Amortizasiya ayırmaları | 339.79 | | 339.50 |
| **31 dekabr 2024 cü il tarixinə balans dəyəri** | 10061.05 | | 10061.05 |

**7.Pul vəsaitləri və ekvivalentləri**

| **Göstəricilər** | **31.12.2024** | **31.12.2023** |
|---|---|---|
| Kassada nağd pul vəsaitləri | 1352.19 | 0.00 |
| Milli valyutada bank hesabı | 8624.38 | 1352.19 |
| **Yekun** | **10 061.05** | **2.19** |

**8.Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)**

| **Göstəricilər** | **31.12.2024** | **31.12.2023** |
|---|---|---|
| Əvvəlki hesabat dövrünün mənfəəti | 2.19 | 0.00 |
| Cari hesabat dövrünün mənfəəti | **8622.19** | 2.19 |
| **Yekun** | **8624.38** | **2.19** |

**9.Gəlirlər**

| **Göstəricilər** | **31.12.2024** | **31.12.2023** |
|---|---|---|
| Dövlət büdcəsindən (Maliyyə Nazirliyindən daxil olan vəsaitlər) | **274 278.60** | 283 275.45 |
| Üzvlük haqqlarından daxil olna vəsaitlər | 0.00 | 0.00 |
| **Yekunu** | **274 278.60** | **283 275.45** |

| Vəsaitin daxil olduğu tarix | Vəsaiti ödəyən qurum | Daxil olan vəsaitin məbləği |
|---|---|---|
| 22.01.2024 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 55000.00 |
| 29.03.2024 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 15312.50 |
| 17.04.2024 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 55000.00 |
| 14.06.2024 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 15348.10 |
| 17.07.2024 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 55000.00 |
| 24.10.2024 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 66410.55 |
| 20.2.2024 | Azərbaycan Respublikası Maliyyə Nazirliyi | 12207.45 |
| | **Cəmi** | **274278.60** |

**10.Xərclər**

| Göstəricilər | 2024 | 2023 |
|---|---|---|
| **1. Cari işlərə sərf olunan xərclər** | **7 100.00** | **10 000.00** |
| **2. Siyasi partiyaların saxlanmasına və informasiya təminatına çəkilən xərclər** | **175 840.74** | **175 502.96** |
| Əmək haqqı | 113 400.00 | 112101.00 |
| Sosial sığorta ayırmaları | 37 093.00 | 36 668.40 |
| Vergi ödənişi | 0.00 | 85.00 |
| Tibbi sığorta | 0.00 | 0.00 |
| İcarə haqqı | 1 176.24 | 1 176.24 |
| İnformasiya və internet xərcləri | 2 830.00 | 2755.00 |
| Elektrik enerjisi xərcləri | 800.00 | 1700.00 |
| Qazdan istifadə haqqı | 0.00 | 0.00 |
| Dəftərxana xərcləri (mərkəzi və yerli təşkilatlar üçün) | 9 905.00 | 11 906.00 |
| Bank xidməti xərcləri | 632.80 | 864.07 |
| Əsas vəsaitlərin amortizasiyası | 253.12 | 337.50 |
| Plastik kart | 130.00 | 130.00 |
| Audit xidməti | 2000.00 | 1800.00 |
| Dövrü nəşrlərin alınması xərcləri | 5200.00 | 4600.00 |
| Təsərrüfat xərcləri | 2004.88 | 1004.75.00 |
| Notarius rüsumu | 415.00 | 375.00 |

| | | |
|---|---|---|
| **3.İctimaiyyətlə əlaqələr və seçkilərin keçirilməsinə çəkilən xərc** | **9 520.00** | **8 520.00** |
| **4. Yerli təşkilatlara edilən yardım** | **38 725.00** | **56 705.00** |
| **5. Fərdi xərclər** | **5 100.00** | **3 100** |
| Ezamiyyə xərcləri | 5 700.00 | 5 300 |
| **6. Sair xərclər** | **23 584.00** | **49 655.00** |
| Avtonəqliyyat xərcləri (yanacaq ehtiyat hissələri) | 4 300.00 | 4 800.00 |
| Tarixi günlər və bayramların qeyd edilməsinə çəkilən xərclər | 2 130.00 | 2 295.00 |
| "Yaşat" fonduna ianə | 0.00 | 0.00 |
| Yerli təşkilatların bərpası və təşkilinə çəkilən xərclər | 3 194.00 | 7 350.00 |
| Müraciət edən üzvlərə maddi yardım | 13 960.00 | 35 210.00 |
| Pandemiyadan zərər çəkənlər üçün | 0.00 | 0.00 |
| **Yekunu** | 265 569.74 | 308 782.96 |

**Hesabat dövrü ərzində Amortizasiyaya çəkilən xərcin məbləği 450.00 (dörd yüz əlli) manat olmuşdur.**

**11.Əlaqəli tərəflərlə əməliyyatlar**

Hazırki maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün tərəflər o zaman əlaqəli hesab olunur ki, tərəflərdən biri digərinə nəzarət edə bilsin, onunlaeyni qrupun nəzarəti altında olsun və ya maliyyə - təsərrüfat fəaliyyəti ilə bağlı məsələlər üzrə qərar qəbul edərkən ona təsir göstərə bilsin.Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, iqtisadi məzmununa diqqət yetirilir.

**12.Risklərin idarə edilməsi**

Partiya daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri( kredit riski, bazar riski, coğrafi risklər, valyuta riski, likvidlik riski və faiz dərəcəsi riski), əməliyyat və hüquqi risklərlə əlaqədar həyata keçirilir.Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayyət edilməsidir.Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd, bu risklərin azadılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayyət edilməsini təmin etməkdən ibarətdir.

**13.Kredit riski**

Partiyanın kredit riski konsentrasiya üçün potensial müzakirə mövzusu olan maliyyə aktivləri pul və debitor borclardan ibarətdir.Partiyanın pul depozitləri mötəbər maliyyə idarələrində yerləşdirilmişdir.Partiya bazardakı ümumi və spesifik dəyişiklərə məruz qalan faiz, valyuta və pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır.Bazarda daha əhəmiyyətli dəyişikliklərin baş verdiyi haldamüəyyən edilmiş limitdən artıq zərərlərin yaranmasının qarşısı alınır.Qəbul edilmiş normalar ilə uzunmüddətli borcların bazar dəyəri onların daşınan dəyərləri ilə dəyişə bilər.

**14.Faiz dərəcəsi riski**

Partiyanın bir çox borcları təyin olunmuş marağı ifadə edir.Bu borclarla əlaqəli maraq xərcləri sığortalanmamışdır.Rəhbərlik inanır ki, maraq normalarının daimi olmamasından irəli gələn bazar qiymətlərinə dəyişikliklər əhəmiyyətli xarakter daşımır.

**15.Hesabat tarixindən sonra baş vermiş hadisələr**

Hesabat tarixindən sonra maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcək hadisələr baş verməmişdir.

**Partiyanın sədri : Nurullayev Razi**

AZƏRBAYCAN RESPUBLİKASI «MİLLİ CƏBHƏ PARTİYASI» «NATIONAL FRONT PARTY» AZERBAIJAN REPUBLIC

**Baş mühasib : Daşdəmirli Sənan** 18 Mart **2025-ci il**